Scientific News of Azerbaijan State
Academy of Physical Education and Sport

SPORT SCİENCE JOURNAL
Vol 3 Issue 2, June 2018

*İcmal*

# Linqvistik imperializmin inkişaf faktoru kimi idman sahəsində funksionallaşması

*Elvira Babayeva*[1]
[1]*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*

**Nəşr tarixi**
Qəbul edilib 1 mart 2018
Dərc olunub: 5 iyun 2018
© 2018 ADBTİA. Bütün hüquqlar qorunur.

**Açar sözlər:** linqvistik imperializm, idman konteksti, perspektiv, inkişafyönümlü.

Giriş:Dili hər zaman ən mühüm ünsiyyət vasitəsi olaraq qiymətləndirmişik. Əslində dil həm də dünyaya açılan bir pəncərə deməkdir. Elə böyük alman dilçisi Humboldt da məhz bu səbəbdən demişdi ki, insan nə qədər çox dil bilsə dünyaya baxış bucağı da bir o qədər genişlənər.

Çağdaş dünyanın dil mənzərəsinin nə qədər zəngin və rəngarəng olmasına baxmayaraq, insan fəaliyyətinin hər sahəsində özünü göstərən qloballaşma bu mənzərəyə əsaslı şəkildə təsir göstərməkdədir. 1951-ci ildən bu yana vaxtaşırı nəşr olunan Etnoloq jurnalının 2018-ci ildə dərc olunan 21-ci sayında göstərilir ki, dünya üzərində 7097 dil vardır və ilbəil bu dillərin bir çoxu ölüb aradan çıxır [12].

Alman alimi H.Haarmanın fikrincə XXI əsrdə hazırki dünya dillərinin 40%-i artıq "ölü dil" statusu almış olacaq[10, s.5].

Dillə bağlı bu məsələnin gələcəkdə hansı istiqamətə yönələcəyi barədə indidən bir şey söyləmək doğru olmazdı. Hər halda, son illərdə dünyada təkdilliliyə meyil daha da güclənməkdədir.

Həqiqətən, müasir dövrdə dünyanın hər yerində insanlar ingilis dilinə böyük maraq göstərirlər. İnsan fəaliyyətinin hər sahəsində bu dilin nüfuzu getdikcə daha çox artır. Digər sahələrlə müqayisədə ingilis dilinin idman sahəsindəki rolu daha böyük olmaqla bərabər, paradoksal xarakterə malikdir. İdman sahəsində hər gün baş verən yeniliklər, insanların bu istiqamətə olan marağının ildən-ilə daha da artması, habelə, sözügedən sahənin aktuallığı birbaşa və ya dolayı yolla həm ingilis dili ilə bağlı ola bilir, həm də, zaman-zaman ona da təsir göstərmiş olur. İngilis dilinin idman kontekstindəki rolu onun inkişafına yol açmaqla bərabər, həm də, əksinə, milli dil siyasətinə təkan vermiş olur.

Material metodları: Tədqiqat işində, əsasən, təsviri (deskriptiv) və müqayisəli-qarşılaşdırma metodlarından istifadə olunmuşdur.

Təcrübələr:İdmanın inkişafı ilə əlaqədar olaraq hər bir cəmiyyətə daxil olan ingilis dili mövcud dili zamanla sıxışdıra və ondan istifadəni azalda bildiyi kimi, həm də idman kontekstində hərtərəfli inkişafa, bunun təsiri ilə dolayı yolla da olsa istifadəsində məhdudiyyət yaratmış olduğu dilin və onun xas olduğu mədəniyyətin təbliğat dilinə çevrilmiş olur. Dünyanın bir çox ölkəsində ayrı-ayrı müəlliflər bu barədə müxtəlif elmi əsərlər ərsəyə gətiriblər[8]. Fikrimizi daha da aydın ifadə etmək üçün belə bir fakta nəzər salaq: ADBTİA-ın "Sosial Elmlər" kafedrasının təşəbbüsü ilə təşkil edilmiş danışıq klublarında iştirak edən idmançı tələbələr arasında keçirilmiş sorğuya əsasən deyə bilərik ki, ingilis dilini bilməyin idmançılar üçün bir çox üstünlüyü vardır. İngilis dilini qısa



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

müddətdə mənimsəməyə çalışan idmançı tələbələrin bu məqsədlərinin arxasındakı maraqlar araşdırmamız üçün irəli sürdüyümüz fikri bir daha təsdiq edir. Sorğuda iştirak edən tələbələrin cavabları arasında ən çox üst-üstə düşən və maraqlı olan məqamları təqdim edirik:

- Danışıq klublarında müntəzəm iştirak edən professional idmançılar hesab edirlər ki, ingilis dili onların kariyerasındakı inkişafda böyük rol oynayacaq. İngilis dilinin, idman sahəsində fəaliyyət göstərən hər bir şəxs üçün müstəsna bir üstünlüyü vardır. Bunun əsas səbəbi odur ki, idman beynəlxalq əhəmiyyətə malik olan bir sahədir. Bu baxımdan idman sferasında fəaliyyət göstərən hər bir şəxs daha çox inkişaf etmək, dünya miqyaslı fəaliyyət göstərmək və uğurlar əldə etmək üçün beynəlxalq yarışların əsas dilinə - ingilis dilinə yiyələnməlidir. Bildiyimiz kimi, ayrı-ayrı sahə idmançılarının fərdi xüsusiyyətlərini əks etdirən xüsusi idman saytları vardır. Futbol, basketbol, volleybol, həndbol və s. kimi idman oyun növləri üçün xüsusilə perspektivli olan bu saytlarda idmançıların profillərinin açılması və onlar haqqında müvafiq informasiyaların verilməsi gələcəkdə uğurlu transferlər üçün zəmin yaradır. Nəticə etibarilə dil vasitəsilə beynəlxalq arenaya ayaq basmaq idmançılar üçün bir qədər də əlçatan olur. Mövcud vəziyyətdə idmançının qarşısında duran bütün imkanlar müsbət istiqamətdə dəyişmiş olur. Fəaliyyət sferası genişləndikcə idmançıların həm beynəlxalq aləmdə nüfuzu, həm də fərdi maddi gəliri də artmış olur. Bunlardan daha əhəmiyyətli bir faktor isə artıq dünya arenasına qədəm qoyan idmançıların qazandıqları qələbələr və uğurlarla mənsub olduqları ölkəni və xalqı bütün dünyaya tanıtmasıdır. Beləliklə, ingilis dilini bilən idmançılar bu xidmətlərdən rahatlıqla yararlanmaqla sadalamış olduğumuz müvəffəqiyyətlərin hər birinə zamanla nail ola bilirlər.

- Bir faktı da qeyd edək ki, idmançı tələbələr arasında artıq məşqçi və hakim kimi fəaliyyət göstərənlər də var. Xarici dilin onlar üçün əhəmiyyəti heç də idmançılardan daha az deyil. Beynəlxalq yarışlarda hakimlik edərkən yuxarıda idmançılar üçün qeyd etdiyimiz üstünlüklərə hakimlər də müvəffəq olur. Zamanla onlar artıq tələb edən deyil, tələb edilənə çevrilirlər. Digər məsələyə toxunsaq, öz sahəsində çox uğurlu olan bir idmançı gələcəkdə məşqçilik fəaliyyətinə başlayarkən ingilis dilini bilərsə, bu zaman onun qarşısına açılan qapılar həmin insanı daha böyük uğulara yönləndirəcəkdir.

- Bununla yanaşı, bəzi tələbələr həm təhsillərini davam etdirmək, həm də öz sahələri ilə bağlı dünya təcrübəsinə yiyələnmək üçün ingilis dilinə xüsusi maraq göstərirlər. Habelə, bəziləri gələcəkdə başqa ölkələrdə, xüsusilə də Amerikada yaşamaq arzusundadır. Təbii ki, bu arzunu reallaşdırmaq üçün ilkin tələblərdən biri ingilis dilini bilməkdir ki, tələbələr özləri də bundan xəbərdardırlar. Nəticə etibarilə, başqa ölkədə, ələlxüsus da ingilis dilli ölkələrdə yaşamaq istəyən tələbələrin bu arzusu onların ingilis dili öyrənmə motividir.

- Bir qrup tələbələr bu dilin daha informativ olması səbəbiylə ona xüsusi maraq göstərirlər. Xüsusilə də, "İdman menecmenti və kommunikasiya" ixtisasına yiyələnən tələbələr hesab edirlər ki, ingilis dilini bilərək, həm öz ixtisaslarına, həm də dünyaya, ətraf aləmə dair daha çox məlumat əldə edə bilərlər. Onlar həm də qeyd edirlər ki, onları ingilis dilini öyrənməyə sövq edən digər bir səbəb marağında olduqları hər hansı kitabı oxuyarkən, sevdikləri filmə baxarkən onların birbaşa orijinal variantından yararlanmaq istəyidir. Ümumiyyətlə, ingilis dilli ölkələrdən başqa,



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

dünyanın bir çox ölkələrində bu dilin rəsmi dil olması, onun fəaliyyət və inkişaf sferasını genişləndirir. Dünyanın, demək olar ki, bütün ölkələrində orta və ali təhsil müəəssisələrində ingilis dili aparıcı rol oynayır. Elə bu səbəbdən də, elmi ədəbiyyatların mühüm bir qismi ingilis dilindədir. Elmi baxımdan inkişafyönümli və məqsədli olan tələbələrin istədikləri kimi tərəqqi etməsi üçün bu dili mənimsəmələri olduqca əhəmiyyətlidir.

- Qeyd edək ki, danışıq klublarında müntəzəm iştirak edən idmançı tələbələr arasında zaman-zaman öz dillərində verdikləri, lakin ingilis dilinə tərcümə edilərək dərc olunan müsahibələri nəzərdən keçirərkən ingilis dilinə marağı yaranan və ya bu dilin sadəcə səslənməsini bəyəndikləri üçün öyrənənlər də vardır.

Müzakirə:İstənilən sahədə dünya təcrübəsinə yiyələnməyin əhəmiyyəti danılmazdır. Bir dilşünas kimi, öz mövqeyimizdən yanaşdıqda əminliklə qeyd edə bilərik ki, nə qədər çox dil bilsək, bu, həm bizim üfüqümüzü genişləndirir, eyni məfhumla bağlı daha çox məlumat əldə etməyimizə yol açır, həm də öz mövqeyimizi bildirməyimiz üçün də bizə daha əsaslı bir zəmin vermiş olur. Bu məsələ, elm və fəaliyyət sahələrində hər zaman aktualdır. İdman sahəsinin mütəxəssisləri üçün də bu reallıq dəyişmir. İnternet şəbəkəsinin insan həyatına ən çox nüfuz etdiyi bir dövrdə ingilis dilini bilməklə,hər bir idmançı istər nəzəri, istərsə də bir çox praktik yeniliklərə yiyələnə bilir.

Linqvistik imperializm simasında ingilis dili ilə idman sahəsinin qarşılıqlı əlaqəsini analiz edərkən, bu dilin nəinki bu sahədə fəaliyyət göstərən ayrı-ayrı fərdlər üçün, habelə, sözügedən istiqamət üçün bir proses kimi xarici dilin əhəmiyyəti ayrıca qeyd olunmalıdır. Məlum olduğu kimi, Azərbaycan dəfələrlə dünyamiqyaslı yarışlara ev sahibliyi etmişdir. Məhz bu baxımdan, son illər (Bakı 2015 Avropa Oyunları, Furmula 1, Bakı 2017 İslam Həmrəyliyi oyunları) ölkəmiz üçün olduqca əlamətdardır. Yarışların təşkili ingilis dilinin idman sahəsindəki rolunu bir daha gözlər önünə sərdi. Tamaşaçılar, atletlər və hakimlər, media, protokol xidməti komandalarının fəaliyyətində ingilis dilinin əhəmiyyəti və funksionallığı dəfələrlə özünü göstərir. Buradan belə bir qənaətə gəlirik ki, bütün dünya üzərində get-gedə daha çox hegemonluq edən ingilis dili, idman sahəsində nəinki idmançılara, həm də, bu sahədə fəaliyyət göstərən hər kəsə daha böyük perspektivlər vəd edir.

Yuxarıda qeyd etmişdik ki, idman kontekstində aktuallaşan linqvistik imperializm digər sahələrdəki fəaliyyətindən bir qədər fərqli xüsusiyyətlərə malikdir və bu fərqlilik onun, bir-birinə qarşı olan, paradoksal təbiətə malik iki prosesə eyni anda səbəb olması ilə əlaqədardır. İdman yarışlarının təşkili ingilis dilinin nüfuzunu artırması ilə yanaşı, həm də bütün dünyanın diqqətini yarışların təşkilatçısı olan ölkənin üzərinə çəkir. Elə bu mövqedən yanaşaraq, ingilis dilinin bu kontekstdə aktuallaşmasının bir-birinə paradoksal iki prosesə səbəb olduğunu vurğulamalıyıq. Fikrimizi aydınlaşdırmaq üçün bir daha mövcud təcrübəyə nəzər salmaq yerinə düşərdi. Son illərdə Azərbaycanda baş tutan bir sıra dünyamiqyaslı yarışlar ölkəyə, o cümlədən, dilimizə və milli mədəniyyətimizə olan marağı daha da artırmışdır. Yarışlarla əlaqədar ölkəmizə təşrif edən əcnəbilərin dilimizə və milli mədəniyyətimizə göstərdikləri maraq bu fikri bir daha təsdiq edir. Təsadüfi hal deyil ki, artıq bir neçə dəfə ölkəmizə gələn bir sıra xarici rəsmi nümayəndələr belə öz etibarnamələrini təqdim edərkən müəyyən qədər Azərbaycan dilində danışmağa çalışırlar [10, s.6]. Bunun özü



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

də Azərbaycan dilinin nüfuzunun artmasına dəlalət edir.

Dilçilər hər zaman dil vahidlərini ayrı-ayrı sahələrin prizmasında araşdırıblar. İdmanla dilin əlaqəsi də elə bu səbəbdən dolayı, dəfələrlə müxtəlif tədqiqat işlərinin obyekti olmuşdur.Bu məqsədlə bir neçə dəfə idman terminləri lüğətləri hazırlanaraq nəşr olunmuşdur [5, s.3]. Dillə idmanın əlaqəsini araşdırma obyekti olaraq seçən tədqiqatçılar müxtəlif arqumentlər gətirirlər. Hər kəsə məlum olan bir faktdır ki, idman ildən-ilə daha çox təbliğ olunur. İdmançıların özləri arasında, habelə, ayrı-ayrı idmançılarla dünyanın müxtəlif yerlərində olan idman klubları arasında ünsiyyət get-gedə daha da artır. Müxtəlif xalqlara məxsus olan ayrı-ayrı idman növləri zamanla beynəlxalq yarışların arasında yer alır. Bütün bunlardan başqa bir mühüm faktı da qeyd etmək yerinə düşərdi ki, idman yarışları üçün idmançılar qədər hakimlər də önəm daşıyır. Hakimlərin fəaliyyətindəki obyektivliyin önəmini təmin edəsi əsas faktlardan biri yarışın gedişatında onların bir-biri ilə anlaşmasıdır. Qeyd olunan tələbi qarşılamağın əsas yolu yenə dildən keçir. Fikrimizi daha dəqiq və lakonik çatdırsaq, idmanda inkişaf üçün mütləq şəkildə vahid dil olmalıdır [5, s.4]. Heç təsadüfi hal deyil ki, dünyanın hər yerində ən müxtəlif idman növlərinin harada tətbiq olunması və aktuallaşmasına baxmayaraq, sözügedən sahədə fəaliyyət zamanı istifadə olunan sözlər, əsas etibarilə, terminlər olur. Onu da qeyd etmək yerinə düşərdi ki, bəzən idman sferasından olan bəzi ədəbiyyatlarda kontekstlə bağlı olan müxtəlif anlayışlar təsviri formada öz əksini tapır. İstər dilçilik, istər də idman sahəsinin öz diskursu baxımdan, bu hal arzuolunmazdır. Bunun səbəbi odur ki, idman dilində ifadə zamanı dəqiqlik olmadıqda qarışıqlıq yaranır və bu kimi halların nəticəsi müxtəlif arzuolunmayan fəsadlar gətirə bilir. Qeyd olunan amillər əslində dilçilərin diqqətini dəfələrlə çəkib. Nəticə etibarilə, idmanın gündəlik həyatda aktiv yer aldığı bütün cəmiyyətlərdə dilçilər bu məsələyə laqeyd qalmamış, müxtəlif lüğətlər hazırlanmışdır.

İdman terminlərinin dəqiq, vahid şəkildə başa düşülməsinin müəyyənləşməsi və adlandırılmasına idmançıların, məşqçilərin, hakimlərin, sahə əməkdaşlarının, xüsusi tədris müəssisələrinin müəllim və tələbə heyətinin, habelə, tele-radio verilişlərinin aparıcılarının, qəzet və jurnal əməkdaşlarının, bu sahəni tez-tez işıqlandıran jurnalistlərin böyük ehtiyacı vardır [5, s.3]. Lakin təqdim etdiyimiz bu məqalədə göstərilən fikirlərə əsasən bir daha qeyd etmək yerinə düşərdi ki, idmanla dillərin qovuşduğu nöqtədə terminoloji dil qədər, kommunikativ, ünsiyyətə yönəlik praktik dil də olduqca zəruridir.

Nəticə:Mədəniyyətlərin bir-birinə daha çox qovuşduğu multikulturalizm əsrində idman sahəsinin yeni trendin tətbiqində müstəsna bir rol oynadığını nəzərə alaraq, bu kontekstdə yer alan adresat və adresantların qarşılıqlı ünsiyyətdə olması, anlaşması, yəni bir dildə diskursa daxil olması, həqiqətən də, arzuolunandır. Dünyanın hər yerində getdikcə daha da aktuallaşan və sosial dilçiləri olduqca həyəcanlandıran linqvistik imperializmin geniş vüsət alması hər nə qədər milli mədəni dəyərlərin zərər görməsinə səbəb olsa da, onların zamanla daha çox işıq üzü görməsinə, dünyaya tanıdılmasına və son nəticədə təbliğatına yol açır. İdmanın bu istiqamətdəki rolunu və nə dərəcədə əhəmiyyət daşıdığını anlamaq üçün son illərdə Azərbaycanda baş tutan mötəbər idman yarışlarının nəticələrinə nəzər salmaq kifayətdir. Bəziləri bundan xəbərsiz ola bilər, lakin bir dilçi olaraq əminliklə qeyd edə bilərik ki, bundan bir neçə il



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/ licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

əvvəl dünyanın müxtəlif yerlərindən olan əcnəbilərlə istər üzbəüz, istərsə də ümumdünya internet şəbəkəsi vasitəsilə əlaqə saxladıqda, acınacaqlı da olsa, xaricilərin Azərbaycan haqqında çox az informasiyaya malik olduğunun, hətta bəzilərinin, ümumiyyətlə, belə bir ölkənin varlığından xəbərsiz olduğunun şahidi olurduq. Hazırda vəziyyət tamamilə dəyişib. Artıq dünyanın hər bir yerində insanlar Azərbaycanı tanımaqla bərabər, bu ölkə haqqında yetərincə məlumatlıdırlar. Bu faktın bir ölkənin və xalqın varlığı və inkişafı üçün əhəmiyyəti olduqca zəruridir. Daha mühümü isə odur ki, bu zərurəti reallığa çevirən fakt Azərbaycanda baş tutan əhəmiyyətli idman yarışları və idmançılarımızın qələbələridir. Odur ki, bütün bu prosesləri reallaşdırmaq üçün dünyanın hər bir yerindən qələbə sədası gələn idmançılarımızın xarici dili bilməsinə böyük ehtiyac var. İdmançıların öz sahələrindən başqa, həm də xarici dil səriştəsinə malik olması həm onların, həm də ölkənin gələcək inkişafına işıq tutan bir aynadır.

**Ədəbiyyatlar:**

1.Beard A. The language of sport. Routledge,2010, pp.117.
2. Brian V. Street (Ed.): Cross- Cultural Approaches to Literacy. Cambridge University Press, 2013, pp.321.
3. Cahangirov F. Dil və Mədəniyyət. Bakı, Elm və təhsil, 2014, 306 s.
4. Crystal D. Language death. Cambridge University Press. Cambridge – 2000. pp.198.
5. Hüseynov S.S., Allahverdiyev S.İ. İdman terminlərinin izahlı lüğəti. Bakı, “Elm və təhsil”, 2016, 568 s.
6. Pennycook Allastair. The Cultural Politics of English as an İnternational Language. Longman, 2014, pp.365.
7. Scollon Ron and Suzanne Wong Scollon. Intercultural communication – A Discourse Approach. Blackweel, 2015, pp.271.
8.Taylor and Francis. Sport in Society. Routledge. Vol. 21, No 6, 2018.
9. Taylor and Francis. The Discourse of Sport. Routledge. 2016. pp.256.
10. Veysəlli F.Y., Veysəlova D.Ş. Planetimizin dil mənzərəsi rəqəmlərin dili ilə. “Azərbaycanda xarici dillər” jurnalı. Bakı: say 3(29)/2015, s. 5-9.
11.Yunusov D. Konstruktiv dialoq və düzgün ünsiyyət qurmaq qabiliyyəti. Mədəniyyətlərarası dialoq: linqvistik, pedaqoji və ədəbi aspektlər. Beynəlxalq elmi konfransın materialları. Bakı, 25-27 noyabr, 2010.
12. http://www.worldcat.org/title/ethnologue/oclc/2693922



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.